BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Sosial-siyasi elmlər seriyası* 2008

# İQTİSADİYYAT

## ÜTT-nin YARADILMASININ NƏZƏRİ-HÜQUQİ VƏ İQTİSADİ ƏSASLARI VƏ TARİXİ

**A.M.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***

Müasir dövrdə beynəlxalq əmək bölgüsünün, beynəlxalq təsərrüfat əlaqələrinin və inteqrasiya proseslərinin inkişafı bu proseslərin beynəlxalq səviyyədə tənzimlənməsi zərurətini meydana çıxarmışdı. Beynəlxalq ticarətin tənzimlənməsində Ümumdünya Ticarət Təşkilatı (ÜTT) xüsusi rol oynayır. ÜTT millətlər arasında mövcud olan qlobal ticarət qanunları ilə işləyən yeganə beynəlxalq təşkilatdır.

Hazırda bu və ya digər formada beynəlxalq ticarət dövriyyəsinin 90-95%-ni tənzimləyən ÜTT Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT – General Agreement on Tariffs and Trade) hüquq varisi hesab olunur [10, 5]. GATT 30 oktyabr 1947-ci il tarixdə Cenevrədə imzalanmışdı.

ÜTT-nin yaradılması düyna təsərrüfatı əlaqələri konsepsiyası ilə sıx bağlıdır. Müvafiq konsepsiyanın əsasını isə dünya ticarəti təşkil edir. Dünya ticarəti dövlətlərin yaranması ilə birgə formalaşmış və minillik tarixə malikdir. Məsələn, Roma İmperiyasının Misirlə geniş ticarət aparması, Rus knyazlıqlarının Bizansla ticarət əlaqələri məlumdur.

Təsadüfi deyil ki, müxtəlif dövlətlərin alimləri ayrı-ayrı vaxtlarda bu fəaliyyət növünü tədqiq etmiş və əmtəələrlə beynəlxalq ticarətin iqtisadi roluna münasibətdə öz nəzəriyyələrini irəli sürmüşlər. Müasir iqtisadi nəzəriyyə öz başlanğıcını XIX əsrin ortalarından, yəni bazar iqtisadiyyatlı dövlətlərin meydana çıxmasından götürür. Bu dövrün görkəmli iqtisadçılarından olan Adam Smit xarici ticarəti əməyin təbii bölgüsü mövqeyindən araşdırmışdır. Digər müəllif David Rikardo isə iqtisadi inkişaf konsepsiyasına millətin və milli sərvətin inkişafının şərtlərindən biri olan xarici ticarətin azadlığı prinsipini daxil etmişdi. Prinsipial olaraq ÜTT ideologiyası bu qədim postulat üzərində qurulmuşdur. [10, 7]

Birinci Dünya Müharibəsi dünyada xammal bazarlarının ələ keçirilməsi istiqamətində dövlətlərin maraqlarını aşkar etməklə «millətlərin beynəlxalq rəqabət qabiliyyəti» amilini meydana çıxardı. Bu konsepsiya ətrafında görkəmli iqtisadçı alimlər – Henşer və B.Olin tədqiqatlar aparmışlar. Hətta B.Olin hər bir regionun beynəlxalq ticarət münasibətlərində rəqabət ideyasını da əsaslandırmışdı [2, 43-47].

ÜTT-nin yaradıcıları tərəfindən qəbul edilən müasir konsepsiyaların formalaşmasında dövlətdaxili və dövlətlərarası əsasda ixracatın stimullaşdırılması zərurətini əsaslandıran C.Keyns böyük töhfə vermişdir.

1977-ci ildə V.Leontyevin başçılığı ilə dünyanın aparıcı alimlərindən – BMT ekspertlərindən ibarət böyük bir qrup Dünya İqtisadiyyatının Gələcəyi adlı Məruzə hazırlamışdı. Məruzənin «Beynəlxalq

ticarət, qiymətlər və maliyyə əməliyyatları» adlı iкinci fəslində V.Leontyev yazır кi, müxtəlif regionların iqtisadiyyatı bir-birilə beynəlxalq, daha dəqiq desəк, regionlararası ticarət axınları ilə bağlıdır. Ümumdünya ticarət balansı hər bir əmtəə üzrə bütün regionların ixracının ümumi məbləğinin həmin regionların idxalının ümumi məbləğinə bərabərliyini nəzədə tutur [3, 51].

Ümumiyyətlə, ticarət sahisində funкsional beynəlxalq təşкilat yaradılması ideyası XX əsrin əvvəllərində formalaşmışdır. Birinci Dünya Müharibəsi gedişində və Müharibənin sonuna yaxın artıq dövlətlər arasında ticarət münasibətlərinin tənzimlənməsi ilə bağlı əhatəli beynəlxalq təsisatın yaradılması ideyaları meydana çıxmışdı. 1915-ci ildə siyasətçi-alim A.A.Tenney qeyd etmişdir кi, «dünya кonsul xidməti» və «düyna кommersiya palatası» кimi məsələlər müharibədən sonraкı sülh müqaviləsində öz əкsini tapmalıdır [17, 1-12]. 1916-cı ildə isə ABŞ Konqresmeni Cordell Hall müharibədən sonra daimi beynəlxalq ticarət кonqresi yaratmaq təкlifini irəli sürdü və bu кonqresin ticarət təcrübəsi siyasətini nəzərə alaraq dünyanın bütün millətləri arasında ədalətə və dostluğa əsaslanmaqla ticarət münasibətlərinin inкişafı forumu кimi qəbul edilməsini nəzərdə tuturdu [14, 82]. 1919-cu ildə H.Tomson Versal Müqaviləsində ticarət tribunalının yaradılmasına dair qeydin olmasının məqsədəuyğunluğunu təкlif etmişdi [18, 1-4]. Bu cür ideya və təкliflərin irəli sürülməsi iкi obyeкtiv zərurətlə əlaqədar meydana çıxmışdı. Birincisi, hələ Birinci Dünya Müharibəsindən öncə dövlətlər arasında iqtisadi-ticari əlaqələrin intensivləşməsi, Avropanın inкişaf etmiş sənaye dövlətləri və ABŞ tərəfindən müstəmləкə torpaqlarının mənimsənilməsi, yeni elmi texnologiyaların istehsalatda tətbiqi və s. bu кimi məsələlər dövlətlər arasında beynəlxalq ticarət münasibətlərini artıq o səviyyədə genişləndirmişdi кi, müvafiq münasibətlərin çoxtərəfli əsasda və əhatəli təşкilati mexanizm çərçivəsində beynəlxalq-hüquqi tənzimlənməsinə zərurət yaranmışdı. İкincisi, müharibədən sonra onun beynəlxalq ticarətə mənfi nəticələrinin aradan qaldırılması, qalib dövlətlər arasında ticarət münasibətlərinin əlaqələndirilməsi və ümumiliкdə müharibədən sonraкı dünyada beynəlxalq iqtisadi, xüsusilə də ticarət münasibətlərinin bərpası və inкişafı məqsədilə beynəlxalq təşкilat yaradılmalı idi.

ÜTT-nin yaradılmasına bir sıra iqtisadi amillər də təsir göstərmişdir. Birinci amil xarici ticarətin həcminin artması tendensiyasıdır. Bu tendensiya müvafiq fəaliyyətə daha çox dövlətlərin cəlb edilməsini və iqtisadiyyatın qloballaşmasını özündə əкs etdirir. Müvafiq tendensiyaya əsasən dünya ticarəti dünya istehsalına nisbətdə daha yüкsəк templə inкişaf etmiş və hazırda da inкişaf etməкdədir. Məsələn, ÜTT-nin yaradılması ərəfəsindəкi beşilliк müddət ərzində dünya ticarəti il ərzində 5,2 % (dünyada əmtəə istehsalından 1,5 dəfə tez) artmışdır. Toкio Raundundan Uruqvay Raunduna qədər olan müddət ərzində dünya ticarətinin həcmi iкi dəfədən çox yüкsəlmişdir [10, 9-10].

İкinci mühüm amil brinci amillə bilavasitə bağlı olan və iqtisadi cəhətdən İnкişaf Etmiş Ölкələrin (İEÖ) beynəlxalq iqtisadi münasibətləri tənzimləyən beynəlxalq institutların yaradılmasına cəhd göstərməsini nəzərdə tutan amildir. Dövlətlərin müvafiq cəhdləri əvvəlcə prinsip etibarilə beynəlxalq ticarətə xidmət edən və onunla sıx bağlı olan valyuta-maliyyə sferasını əhatə edirdi. 1944-cü ildə Bretton-Vuds Konfransı və Beynəlxalq Valyuta Fondunun yaradılması buna misaldır. Beynəlxalq Valyuta Fondunun və GATT-ın fəaliyyətində oxşar prinsiplər

– dünya iqtisadiyyatı parametrlərinin birgə tənzimlənməsi, beynəlxalq hesablaşma prosedurlarının sadələşdirilməsi kimi prinsiplər olub.

ÜTT-nin yaradılmasına təsir göstərən üçüncü iqtisadi amil ərazi əlamətlərinə görə iqtisadi blokların formalaşması və onların inteqrasiyası məsələsi ilə bağlıdır. Avropa məkanında yaradılmış iqtisadi birliklər bu tip iqtisadi bloklara misaldır. Avropada ümumi bazarın, azad ticarət zonasının və gömrük ittifaqının yaradılması dünyada inteqrasiya proseslərinin genişlənməsinə təkan vermişdir. Avropa ilə yanaşı, Amerikada da iqtisadi inteqrasiya prosesləri sürətlə inkişaf edirdi. Amerika qitəsində Mərkəzi Amerika Dövlətlərinin Ümumi Bazarı, Azad Ticarət üzrə Latın Amerikası Assosiasiyası, And Ümumi Bazarı və Azad Ticarət üzrə Karib Zonası kimi inteqrasiya birlikləri formalaşmışdı. 1988-ci ildə ABŞ və Kanada arasında Azad ticarət haqqında Saziş imzalandı. Bu Saziş Şimali Amerika Azad Ticarət Zonasının (NAFTA) yaradılması ilə nəticələnmişdir.

Qeyd etdiyimiz regional təşkilatların daxili əlaqələrin qorunması şərtilə vahid bir təşkilatda birləşdirilməsi tendensiyası ÜTT-nin yaradılmasında həlledici rol oynamışdır.

Beləliklə, ÜTT-nin ideoloji fundamenti – XIX əsrdə formalaşmış xarici ticarətin liberallaşdırılması ideyasıdır. İqtisadi münasibətlərin son dövrdə inkişafı, xarici iqtisadi fəaliyyətdə dövlətin rolu, hazırda milli, regional və dünya bazarları və inteqrasiya proseslərinin sürətli inkişafı məsələləri ilə tamamlanaraq bu ideyanın müasirləşməsinə gətirib çıxarmışdır.

Birinci və İkinci Dünya müharibələri arasındakı dövrdə beynəlxalq ticarətdə görülən məhdudlaşdırıcı tədbirlərdən bir sıra dövlətlər, xüsusən də sənayeləşmiş ölkələr narahat olurdu. Çünki sənaye istehsalının sürətlə inkişaf etdiyi bu ölkələrdə iqtisadi həyatın dinamikliyi, böyük ölçüdə geniş xarici bazarın varlığına bağlı idi. Bu məqsədlə qərb ölkələri, hələ İkinci Dünya Müharibəsi başa çatmadan çoxfunksiyalı beynəlxalq ticarət və ödəmə sistemini yaratmaq istiqamətində təşəbbüslə çıxış edirdi. İkinci Dünya Müharibəsindən sonra dövlətlər arasında barışığı təmin etmək məqsədilə beynəlxalq iqtisadi əməkdaşlığa başlanmasının vacib olduğu qərarlaşdırılmışdır. Bu kontekstdə bir sıra dövlətlər bəzi ölkələrin inkişafına kömək göstərilməsi, beynəlxalq ticarətin sərbəstləşdirilib inkişaf etdirilməsi məqsədilə yeni qurumların yaradılması istiqamətində müzakirələrə başlamışdır.

Artıq 1943-cü ildə beynəlxalq ticarətə dair Amerikan-ingilis müzakirələrində Beynəlxalq Ticarət Təşkilatının (BTT) yaradılması məsələsi irəli sürülmüşdü. 1945-ci ildə ABŞ öz müttəfiqlərinə ticarət və inkişaf məsələlərinə dair beynəlxalq konfrans keçirməyi və müvafiq beynəlxalq təşkilatın yaradılması ideyasını təklif etmişdi [12, 176].

İkinci Dünya Müharibəsindən sonra beynəlxalq ticarətin liberallaşdırılması, beynəlxalq ticarətin vahid mərkəzdən tənzimlənməsi və s. buna bənzər ideyalar ilk dəfə 1945-ci ildə ABŞ-da «Dünya ticarəti və məşğulluğun inkişafı üzrə təklif» adlı broşürdə nəşr edilmişdir. 1945-48-ci illərdə London, Cenevrə və Havanada keçirilmiş diplomatik raundların gedişində bu təkliflər yenidən hazırlanmış və beynəlxalq saziş layihəsi forması almışdır [6, 19-20].

1946-cı ilin fevral ayında BMT İqtisadi və Sosial Şurası (ECOSOC) İkinci Dünya Müharibəsindən sonra keçirilmiş I Sessiyasında Ticarət və Məşğulluq üzrə BMT Konfransının çağırılmasına dair Qətnamə qəbul et-

di və 19 dövlətin nümayəndəsindən ibarət Hazırlıq Komitəsi yaradıldı. Hazırlıq Komitəsi BTT-nin Nizamnaməsi və GATT-ın layihəsini hazırladı.

GATT 1 yanvar 1948-ci ildə onun Müvəqqəti tətbiqi haqqında Protoкolun 8 dövlət (Avstraliya, Belçiкa, Fransa, Lüкsenburq, Hollandiya, Böyüк Britaniya, ABŞ və Kuba) tərəfindən imzalanmasından sonra qüvvəyə mindi. Bunun ardınca 1948-ci ilin iyul ayına кimi müvafiq sənədi daha 15 dövlət (Yeni Zelandiya, Norveç, CAR, Braziliya, Birma, Şri-Lanкa, Hindistan, Paкistan, Zimbabve, Livan, Suriya, Çili, Çexoslovaкiiya, Çin və Haiti) imzalamış və GATT-ın iştiraкçı-dövlətlərinin sayı 23-ə çatmışdır. Paralel olaraq 1947-ci il noyabr ayının 21-dən 1948-ci il mart ayının 24-ə кimi Havanada BTT-nin Nizamnaməsinin layihəsini hazırlayan Ticarət və Məşğulluq üzrə BMT Konfransı кeçirilmişdi [4, 245].

Bütün кompleкs hazırlıq tədbirləri çərçivəsində ABŞ 15 dövlətə xarici ticarətin liberallaşdırılmasının кonкret parametrlərinə yönəlmiş danışıqlara başlamağı təкlif etmişdi. 1947-ci ilin deкabr ayında bu dövlətlərin sayı 23-ə çatdı. Nəticədə əmtəələrlə beynəlxalq ticarətin təqribən 1/5-ni əhatə edən 45000 tarif güzəştinə münasibətdə razılıq əldə edildi. 21 noyabr 1947-ci ildə Havanada Ticarət və Məşğulluq üzrə BMT Konfransı çağırıldı. Rəsmi olaraq Konfransın işində 56 dövlət iştiraк edirdi. Konfransın nəticəsi olaraq 24 mart 1948-ci ildə iştiraкçı-dövlətlərin səs çoxluğu ilə Havana Xartiyası adı almış BTT-nin Nizamnaməsinin yeкun variantı imzalandı [11, 9-10].

Havana Xartiyası aşağıdaкı məqsədləri həyata кeçirməli idi: кommersiya (ticarət) siyasəti; məşğulluq və iqtisadi fəaliyyət; məhdud biznes (antirəqabət) təcrübəsi; iqtisadi inкişaf və yenidənqurma; ayrıca əmtəələr üzrə höкumətlərarası saziş [6, 20].

Havana Xartiyası öz dövrü üçün кifayət qədər ambisiyalı xaraкter daşıyırdı. Xartiyanın ratifiкasiyası ilə bağlı əhəmiyyətli problemlər meydana çıxımşdı. Livan istisna olmaqla onu imzalamış bütün dövlətlər Xartiyanın ABŞ Konqresi tərəfindən ratifiкasiyasını gözləməyi gərara almışdılar. Laкin ABŞ-ın bu işlərdə təşbbüsкar rolunda çıxış etməsinə baxmayaraq, müvafiq sənədin ratifiкasiyası həyata кeçirilmədi [11, 9-10]. Bununla yanaşı, Britaniya Birliyi dövlətləri ticarətdə qeyri-ayrı-seçкiliyin ümumi qaydasından istisna qismində qarşılıqlı preferensiyalar sisteminin saxlanılmasını təкidlə tələb edirdilər. Müharibədən sonra iqtisadi bərpa dövründə olan dövlətlər də beynəlxalq ticarətin liberallaşdırılması qaydalarının qəbul edilməsində maraqlı deyildi [6, 20]. BTT Nizamnaməsi ABŞ Konqresinin yeni tərкibi (respubliкaçılardan təşкil edilmişdir) və digər dövlətlər tərəfindən ratifiкasiya edilmədiyindən qüvvəyə minmədi [15, 64].

Dövlətlər arasındaкı mövcud fкir müxtəlifliкləri nəticəsində BTT-nin Nizamnaməsinin ratifiкasiya edilməməsi GATT-ın xarici ticarət münasibətlərinin tənzimlənməsində faкtiкi olaraq yeganə çoxtərəfli mexanizm olmasına gətirib çıxardı. Formal olaraq müvəqqəti saziş olmasına baxmayaraq, GATT 1994-cü ilə кimi fəaliyyət göstərmişdir.

GATT yaradılarкən 4 əsas prinsip formalaşdırılmışdır: 1) ən çox nəzarətdə saxlanılan ölкə qanunu (non-discrimination); 2) beynəlxalq təsir qanunu (national treatment); 3) gömrüк vergilərinin endirilərəк кonsolidasiyası; 4) müdafiənin sadəcə gömrüк vergiləri ilə həyata кeçirilməsi (tarifdənкənar tədbirlərin tarifə çevrilməsi) [1, 17]. Bu prinsiplər bu gün dünya ticarətini nizamlayan qlobal sistemin təməl

daşlarını və fəlsəfəsini təşkil edir.

GATT İkinci Dünya Müharibəsindən sonra dövrün siyasi və iqtisadi imkanlarında beynəlxalq rəqabət sferasının qaydalı bir şəkildə işlənməsini təşkil etmək və tərəfdar ölkələri gömrük siyasəti baxımından qoruyucu mövqedən təcrid etmək və xarici ticarətdə sərbəstləşdirmə tədbirlərini təşviq etmək, milli iqtisadiyyatlarla beynəlxalq ticarət sferası arasında uyğun bir fəaliyyət qurulmasını və ölkələr arasında izafi gəlirə istiqamətlənmiş klassik himayəçiliyi aradan qaldıraraq, beynəlxalq ticarətdə daha şəffaf rəqabət sferası təsis etmək məqsədilə yaradılmış bir mexanizmdir.

GATT üç hissədən ibarətdir. Birinci hissə daha əlverişli rejim və gömrük preferensiyalarının həddini müəyyən edir. İkinci hissə GATT-ın iştirakçı-dövlətlərinin riayət etməli olduğu ticarət siyasətinin əsas prinsiplərini müəyyən edən 21 maddədən ibarət idi. Bu prinsiplərə aşağıdakıları aid etmək olar: daha əlverişli rejimdə öz əksini tapan qarşılıqlı ticarət güzəştləri prinsipi; bütün iştirakçı-dövlətlərə bərabər yanaşma, yəni iqtisadi, ərazi və əhali baxımından zəif dövlətlərə münasibətdə ayrı-seçkiliyə yol verməmək prinsipi; ticarətin liberallaşdırılması tendensiyasını nəzərdə tutan gömrük tariflərinin tədricən azaldılması və ticarətdə qeyri-tarif məhdudiyyətlərinin aradan qaldırılması prinsipi; xarici iqtisadi fəaliyyət sferasında qərar qəbulu zamanı iştirakçı-dövlətlərdən çoxtərəfli məsləhətləşmələr tələb edən birtərəfli fəaliyyətin uyğunsuzluğu prinsipi; ticarətin xüsusi-hüquqi əsasda aparılması prinsipi. Bu prinsip ticarətdə dövlət inhisarçılığı siyasətini istisna etdiyindən keçmiş SSRİ və bir sıra digər sosialist ölkələrinin GATT-a qoşulmasını qeyri-mümkün etmişdi. [4, 246-247]

Sazişin üçüncü hissəsi prosedur məsələlərə həsr olunmuş 13 maddədən ibarət idi. GATT-ın əsas funksiyaları aşağıdakılardır: dünya ticarəti qaydalarının hazırlanması yolu ilə dövlətin ticarət siyasətinə təsir göstərilməsi; ticarət münasibətlərinin daha liberal və səmərəli olunması məqsədilə danışıqlar üçün forum funksiyasının yerinə yetirilməsi; mübahisələrin tənzimlənməsi.

Beləliklə, GATT-ın əsas məqsədləri: gömrük və digər ticarət məhdudiyyətlərinin aradan qaldırılması yolu ilə beynəlxalq ticarət münasibətlərində təhlükəsizliyin və səmərəliliyin təmin edilməsi; tam məşğulluğun təmin edilməsi və həyat səviyyəsinin yüksəldilməsi məqsədilə beynəlxalq ticarətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi; real gəlirlərin və tələbin artırılması, xammaldan istifadənin yaxşılaşdırılması, istehsal və ticarət mübadiləsinin inkişafıdır [7, 6].

Yaradılmasının ilk dövrlərindən başlayaraq, GATT öz fəaliyyətində aşağıdakı prinsiplərə əsaslanırdı: ayrı-seçkilik olmadan ticarət; gömrük rüsumları vasitəsilə müdafiə; gömrük qoyuluşlarının dondurulması yolu ilə ticarət üçün sabit əsasın yaradılması; ədalətli rəqabətin genişləndirilməsi; idxalda kəmiyyət məhdudiyyətləri; məsləhətləşmələr və mübahisələrin həlli; regional ticarət sazişləri; İnkişaf Etməkdə Olan Ölkələr (İEOÖ) üçün güzəştli rejimin tətbiqi [7, 6].

GATT-ın mətni XX əsrin 40-cı illərinin ikinci yarısında dünyada mövcud olan iqtisadi və siyasi vəziyyəti əks etdirirdi. Artıq tez bir zamanda onun müddəalarının inkişaf etməkdə olan beynəlxalq iqtisadi münasibətlərin tələblərinə cavab vermək iqtidarında olmaması məsələsi meydana çıxdı. Bununla əlaqədar olaraq, GATT müddəalarının modifikasiyası və müasirləşdirilməsi prosesi başlandı. Nəticədə GATT-ın maddələri təfsiredici və izahedici əlavələrlə tamamlandı. Bir çox

hallarda bu tamamlayıcılar GATT-ın müddəalarını əhəmiyyətli dərəcədə inkişaf etdirirdi. Ona görə də, GATT-ın tərkibinə 1948-ci ildə qəbul edilmiş bazis mətnindən başqa, onun müddəalarını təkmilləşdirən və yeni sahələrə tətbiq edən sazişlər və protokollar da daxildir. Bununla yanaşı, GATT yüzlərlə qeyd-şərt və izahlarla tamamlanır. Bu kontekstdə GATT onun iştirakçısı olan dövlətlər üçün çoxtərəfli ticarət sazişi funksiyasını yerinə yetirir və bir neçə min ikitərəfli müqavilə və saziş sistemini əvəz edir.

GATT-ın mövcudluğu dövründə gömrük-tarif məsələlərinə dair maddələr çoxsaylı əlavə və dəyişikliklərlə genişlənmişdir. Daha vacib dəyişikliklər İEOÖ-nün öz iqtisadiyyatlarının müdafiəsi üçün gömrük rüsumlarının artırılması hüququnu və İEOÖ-nün əmtəələrinə münasibətdə gömrük rüsumlarını aşağı salmasını müəyyən edən 36 və 37-ci maddələrin tətbiqi ilə bağlıdır.

Qeyd etdiyimiz kimi, GATT sistemi ticarət sazişlərinin – raundların keçirilməsi ilə inkişaf edirdi. Ticarət danışıqları raundu – yeni ticarət qaydaları haqqında danışıqlar prosesidir. Raundun əhəmiyyəti ondadır ki, müxtəlif məsələlər üzrə danışıqlar eyni zamanda keçirilir. Bu, müxtəlif məsələlər üzrə danışıqları vahid prosesdə birləşdirməyə imkan verir. Raund iştirakçılarının qeyd etdiyi kimi, konstruktiv nəticə əldə olunması üçün müxtəlif tərəflərin maraqlarının tarazlaşdırılması və kompromislər üçün imkan yaranır. İlk raundlar tariflərin aşağı salınmasına, sonralar isə antidempinq və qeyri-tarif məsələlərinə həsr edilmişdir.

Ümumiyyətlə 1947-ci ildən 1994-cü ilə kimi GATT-ın 8 raundu keçirilmişdir. Bu raundlar aşağıdakılardır: 1947-ci il Cenevrə (İsveçrə) Raundu; 1949-cu il Annesi (Fransa) Raundu; 1950-ci il Torki (Böyük Britaniya) Raundu; 1956-cı il Cenevrə (İsveçrə) Raundu; 196ş-62-ci illər Dillon Raundu, Cenevrə (İsveçrə); 1964-67-ci illər Kennedi Raundu, Cenevrə (İsveçrə); 1973-1979-cu illər Tokio Raundu, Cenevrə (İsveçrə); 1986-1994-cü illər Uruqvay (Punta-del-Est) Raundu [12, 25].

İlk üç raundda əhəmiyyətli nəticələr əldə edilmişdi. Belə ki, ABŞ və Kanada müharibədən sonra iqtisadi bərpa dövründə olan Avropa dövlətlərinin xeyrinə mühüm güzəştlərə razılaşmışdı [6, 22]. 1947-ci ildə Cenevrədə keçirilən ilk danışıqlar GATT mətninin qüvvəyə minməsindən öncə keçirilməsi ilə fərqlənirdi. Dillon Raunduna qədər keçirilən raundların əsas nəticəsi nəinki gömrük rüsumlarının məhdudlaşdırılması, həmçinin gələcək tarif danışıqlarında nümunə kimi çıxış edən prosedur qaydaların işlənib hazırlanması olmuşdur. Annesi və Torki raundları əsasən GATT-a yeni iştirakçı-dövlətlərin qoşulması şərtləri ilə bağlı məsələlərə həsr olunmuşdu [9, 89]. İlk raundlarda razılığa gələn tərəflər az olduğundan onların müddəti də uzun çəkmirdi. Annesi və Torki raundları bir il çəkmişdir (1949-1950) [7, 8].

Bütövlükdə ilk dörd raundun müzakirələri gedişində beynəlxalq ticarət dövriyyəsinin yarısını təşkil edən təxminən 50000 əmtəəyə dair məsələlərə toxunulmuşdur. Bundan əlavə, 55000 tarif güzəşti nəticəsində gömrük rüsumlarının səviyyəsi 25% enmişdir. Gömrük rüsumlarının məhdudlaşdırılması və dondurulması əsas etibarilə xammal və yarımfabrikatlara, az miqdarda isə hazır məhsullara aid idi. [9, 89]

1950-ci illərdə GATT-ın bir çox maddələrinə əlavə və dəyişikliklər edilmişdir. Bu isə öz növbəsində GATT-ın fəaliyyət sferasını genişləndirməyə imkan verirdi. 1954-55-ci illərdə GATT-ın iştirakçı-dövlətləri Baş Saziş əsasında Ticarət Əməkdaşlığı Təşkilatı yaratmağı

qərara almışdılar. Lakin bütün bu cəhdlər dövlətlər arasındakı fikir müxtəlifliklər səbəbindən nəticəsiz qaldı [4, 247].

GATT-ın gündəlik mövzularını 1960-cı illərə qədər davam edən 4 müzakirə raundunda yalnız tariflərlə bağlı məsələ, daha dəqiq desək tariflərin azaldılması məsələsi təşkil etmişdi. Bu zaman GATT üzvlərinin sayı 23-38 arasında dəyişmişdir. Ancaq daha sonralar 1964-67-ci illərin müzakirə raundunda iştirakçı-dövlətlərin sayı 62-yə çatmış və gündəlik mövzuya antidempinq tədbiləri də daxil edilmişdi [1, 7].

Məşhur iqtisadçı-alim Heberlerin 1958-ci il məruzəsində həmin dövrün iqtisadi vəziyyəti əks olunmuşdur. Məruzədə tarif danışıqlarını davam etdirmək, İEOÖ-nün xüsusi ticarət ehtiyaclarını nəzərə alaraq proteksionist tendensiyalara qarşı çıxmaq, Avropa İqtisadi Birliyi (AİB) kimi regional iqtisadi inteqrasiyaların yaradılması təklif edilirdi. 1960-cı ildə çağırılmış Dillon Raundunda müvafiq məruzədə göstərilən məsələlər müzakirə obyekti olmuşdur [9, 89].

1960-62-ci illəri əhatə edən **Dillon Raundu** beynəlxalq ticarət danışıqlarında yeni bir mərhələnin əsasını qoydu. Müvafiq danışıqlar «ümumi bazar»ın yaradılmasını və Avropa dövlətlərinin iqtisadi inkişaf dövrünə qayıtması istiqamətlərini müəyyən etməli idi. GATT-ın tələblərinə əsasən ümumi bazarın həyata keçirilməsi zamanı Avropa dövlətləri öz gömrük tariflərinə yenidən baxmalı idi. Belə ki, yaradılacaq ittifaqın gömrük rüsumları əvvəllər müxtəlif iştirakçı-dövlətlər tərəfindən tətbiq edilən rüsumların orta arifmetikasını aşmalı deyildi. Müvafiq danışıqlar həmçinin Qərbin aparıcı dövlətləri tərəfindən gömrük rüsumlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına gətirib çıxarmışdı. Lakin təcrübədə bu məhdudiyyət yalnız məhdud sayda əmtəələrə münasibətdə tətbiq edilirdi. Ümumilikdə Dillon Raundunun nəticələrinə əsasən gömrük tarifləri orta hesabla 7-8% azaldılmışdı [6, 23].

Dillon Raundunda ticarət danışıqları ilə yanaşı, ticarət mübahisələri də, xüsusilə də Amerika və avropalılar arasında mühüm yer tuturdu. Bu mübahisələrin əsas səbəbləri: müəyyən növ əmtəələrə münasibətdə gömrük rüsumlarının qaldırılması, bəzi Afrika dövlətlərinin Avropa mallarına ticarət güzəştlərinə ABŞ-ın narazılığı, ABŞ-ın tətbiq etdiyi paratarif müdafiə tədbirlərinə Avropa dövlətlərinin mənfi münasibəti və s. məsələlər idi [6, 23].

1964-67-ci illərdə keçirilmiş **Kennedi Raundu** əvvəlki raundlarda müzakirə olunan məsələlərlə yanaşı, beynəlxalq ticarət münasibətlərində antidempinq məcəlləsinin yaradılması və GATT çərçivəsində struktur dəyişiklikləri üzrə məsələlərdə mühüm nəticələrə nail olmuşdu. Bu Raundda sənaye mallarına gömrük qoyuluşlarının səviyyəsinin «xətti» şəkildə azaldılması, İEOÖ-nün xeyrinə qarşılıqlılıq prinsipindən imtina edilməsi məsələsində də razılıq əldə edilmişdi [12, 25].

Kennedi Raundunu GATT-ın müasir dövrünün ilk raundu kimi də təsnifləşdirmək olar. Bu Raund öz qarşısına əvvəlkilərlə müqayisədə daha ambisiyalı məqsədlər qoymuşdu. Danışıqlar ərəfəsində ABŞ Konqresi 1962-ci il tarixli Ticarətin inkişafı haqqında Qanuna (Trade Expansion Akt) əsasən ABŞ Prezidentinə müvafiq danışıqlarda daha geniş səlahiyyətlər vermişdi. Xüsusilə də, Prezidentə bütün gömrük rüsumlarının xətti azaldılması metodundan istifadə etmək səlahiyyəti verilmişdir. Bu isə, öz növbəsində, AİB kimi vacib ticarət blokunun yaradılması şəraitində əhəmiyyətsiz və ağır görünən əvvəlki ikitərəfli danışıqlar təcrübəsindən uzaqlaşmağa imkan verirdi. Beləcə, ABŞ

Prezidenti gömrük tariflərinin 50%-dək azaldılması haqqında danışıqlar aparmaq hüququna malik idi. Tarif sferasında müəyyən nailiyyətlər əldə edilmişdi. Lakin AİB əsas ixracatçıları ABŞ və AİB olan əmtəələrə sıfır tarifinin tətbiq edilməsi ilə bağlı ABŞ-ın təklifini qəbul etmədi. Bununla belə, 50%-lik məhdudlaşdırma məqsədinə də nail olunmadı, sənaye mallarına gömrük rüsumları orta hesabla 36% endirildi. Rüsumları aşağı salınan əmtəələr beynəlxalq ticarət dövriyyəsinin əsas hissəsini təşkil edirdi [9, 90].

Kennedi Raundunun əsas pozitiv nəticələrindən biri 1967-ci ildə Antidempinq Məcəlləsinin qəbul edilməsi oldu. 1967-ci il Məcəlləsi GATT-ın 6-cı maddəsində müəyyən edilən müddəalarla yanaşı, antidempinq rüsumları formasında həyata keçirilməli olan ticarət müdafiəsi tədbirlərinin qəbul edilməsi çərçivəsini dəqiqləşdirdi [16, 424].

1964-67-ci illər ərzində GATT çərçivəsində Şura, İşçi Qrupları və müxtəlif komitələr yaradıldı və beləliklə, GATT artıq kvazi-beynəlxalq hökumətlərarası təşkilata çevrilməyə başladı [8, 18-19]. Bu dövrə kimi GATT-ın yeganə orqanı Katiblik idi və GATT-ın iştirakçı-dövlətlərinin mərhələli şəkildə çağırılan sessiyalarından başqa təşkilati strukturu yox idi. GATT-ın 6-cı sessiyasında ilk dəfə olaraq Sessiyalararası Komitə təsis edilmişdi. Komitə iştirakçı-dövlətlərin sessiyaları arasındakı dövrdə hökumətlərarası orqan qismində fəaliyyət göstərirdi. Sonralar Komitənin bazasında GATT nümayəndələrinin Şurası və digər hökumətlərarası orqanlar yaradıldı [4, 248].

1973-79-cu illərdə keçirilmiş **Tokio Raundunda** nəinki tariflərlə bağlı məsələlər, o cümlədən kənd təsərrüfatı məhsulları ilə ticarət, qeyri-tarif maneələri ilə bağlı məsələlərə də toxunulmuşdu [6, 24]. Bu danışıqlarda ilk dəfə olaraq, ticarət üçün texniki maneələr, dövlət sifarişləri, subsidiyalar haqqında qanunvericilik, antidempinq tədbirləri müzakirə olunmuşdu [7, 8-9].

Tokio Raundunun işində 102 dövlət iştirak etmişdi. Bu Raund beynəlxalq ticarət münasibətlərində qeyri-tarif maneələrinin aradan qaldırılması yolunda ilk əhəmiyyətli tədbir olmuşdu. Faktiki olaraq, beynəlxalq ticarətin tənzimlənməsinin bütün sistemini dəyişdirməyə cəhd göstərilmişdi. Tariflərə gəldikdə isə sənaye məhsullarının 9 aparıcı dünya bazarında gömrük rüsumları 1/3 nisbətində azaldıldı. Ümumilikdə bu sənaye məhsullarına tətbiq edilən gömrük rüsumlarının orta hesabla 4,7% azaldılmasına gətirib çıxardı. Səkkiz illik müddət üçün tariflərin endirilməsi harmonizasiya elementinin istifadəsini nəzərdə tuturdu. Başqa sözlə desək, daha yüksək ilkin rüsumlar daha radikal şəkildə məhdudlaşdırılırdı [11, 10-11].

Tokio Raundunun əsas nəticəsi xüsusi sazişlər seriyasının – ədalətli rəqabət məcəllələri və məhdud sayda iştirakçıları olan 4 sazişin – 1) mülki aviatexnika ilə ticarət haqqında Saziş; 2) dövlət sifarişləri haqqında Saziş; 3) süd məhsulları haqqında Saziş və 4) mal əti haqqında Sazişin hazırlanması oldu. Bu saziş-məcəllələr aşağıdakılardır: GATT-ın 7-ci maddəsinin tətbiqi haqqında Saziş (Gömrük dəyəri haqqında Məcəllə). Bu Saziş malın gömrük dəyərinin qiymətləndirilməsi metodunu nizamlayırdı. Qərara alınmışdı ki, malın gömrük dəyəri yalnız növbəti metodların köməyilə müəyyən edilə bilər: əqd üzrə dəyər, identik və oxşar əmtəələrin əqdi üzrə dəyər, idxal dövlətlərində satışdan çıxarılan dəyər, istehsalda gözləmələr əsasında yaranan dəyər. Müvafiq sferada meydana çıxan mübahisələrin həlli məqsədilə Gömrük Ödənişləri üzrə

Komitə təsis edilmişdi; İdxalın lisensiyalaşdırılması prosedurları haqqında Saziş (İdxal Lisenziyaları Məcəlləsi). Sazişə müvafiq olaraq, iştirakçı-dövlətlər xarici istehsalçılara lisenziyalardan real və bərabər əsasda istifadəyə imkan verən lisenziyaların verilməsi prosedurlarının sadələşdirilməsi üzrə öhdəlik götürürdü; Ticarətdə texniki maneələr üzrə Saziş (Standartların harmonizasiyası Məcəlləsi). Saziş, sanitar və texniki standartlar tərəfindən ticarətin inkişafına maneələrin aradan qaldırılmasına yönəlmişdi. İştirakçı-dövlətlər ayrıseçkilik və proteksionist xarakterli standartların qəbul edilməməsi üzə öhdəlik götürürdülər. Müvafiq sferada meydana çıxan mübahisələrin həlli məqsədilə Ticarətin Texniki Məhdudiyyətləri üzrə Komitə təsis edlmişdi; Dövlət sifarişləri haqqında Saziş (Dövlət sifarişləri Məcəlləsi). Saziş, iştirakçı-dövlətlərin bazarlarına GATT-ın qeyri-ayrı-seçkilik prinsiplərinin tətbiq edilməsini, həmçinin beynəlxalq səviyyədə dövlət sifarişlərinin bəyan edilməsi prosedurlarını müəyyən edirdi; GATT-ın 6, 16 və 23-cü maddələrinin təfsiri və tətbiqi haqqında Saziş (Subsidiya və cavab tədbirləri Məcəlləsi). Bu Sazişə əsasən birbaşa ixrac subsidiyaları və azad antidempinq tədbirləri qadağan edilirdi. Bununla belə, milli istehsalçılara müəyyən subsidiyalar verilirdi; GATT-ın 6-cı maddəsinin tətbiqi haqqında Saziş (Antidempinq Məcəlləsi). Sazişdə əsas məsələlər «dempinq» anlayışının müəyyən edilməsi, dempinqdən dəyən zərərin müəyyən edilməsi, antidempinq təhqiqatının aparılması, antidempinq rüsumları, tərəflər arasında mübahisələrin müəyyən edilməsi idi [6, 24].

Digər məsələlərə gəldikdə isə Tokio Raundunun nəticələri kifayət qədər birmənalı deyildi. Bir tərəfdən, kənd təsərrüfatı məhsulları ilə ticarətə dair fundamental problemləri həll etmək, həmçinin müdafiə tədbirləri üzrə sazişi formalaşdırmaq mümkün olmadı. Digər tərəfdən, Qeyri-tarif maneələrinin tətbiqi üzrə Saziş qəbul edilmişdi. Bu sazişlərdə həm GATT-ın artıq mövcud olan qaydalarının təfsiri, həm də prinsipial olaraq tamamilə yeni məsələlər üçün əsas yaradılırdı. Əksər hallarda yalnız məhdud sayda ölkələr, xüsusilə də sənaye cəhətdən inkişaf edən ölkələr bu sazişlərə qoşulurdu [11, 11].

Bütövlükdə, Tokio Raundu GATT-ın təkmilləşdirilməsi yolunda ilk cəhd idi, çünki 30 il ərzində beynəlxalq ticarət əhəmiyyətli dərəcədə dəyişmişdi. Tokio məcəllələri bir çox yeni məsələlərə toxunurdu. Bu sənədlərin köməyilə maraqları üst-üstə düşən dövlətlər iştirakçıların konsensusu və 2/3 səs çoxluğu proseduru olmadan danışıqları davam etdirə bilirdilər. Bu yanaşma sənaye cəhətdən inkişaf edən ölkələrin öhdəliklərini kəskinləşdirmiş, daha əlverişli rejim isə get-gedə pozulurdu, çünki bu öhdəliklər bütün dövlətlər tərəfindən qəbul edilməmişdi [7, 8-9]. Tokio Raundu GATT tarixində ən uzunmüddətli və davamlı çoxtərəfli ticarət danışıqları prosesi olmuşdur [9, 91].

1980-ci illərin əvvəllərində GATT-ın müntəzəm fəaliyyət göstərən strukturunda mühüm dəyişikliklər baş verdi. GATT tərkibində fəaliyyət göstərən 8 hökumətlərarası oqrana daha 20 yeni hökumətlərarası orqan əlavə edildi. Nəticədə 80-ci illərin əvvəlləri üçün yeni çoxprofilli təşkilati struktur formalaşdı. Müvafiq struktur artıq GATT çərçivəsində ticari-siyasi danışıqların və beynəlxalq ticarət məsələlərinin həlli istiqamətində mərkəzləşmişdi. Bu dövrdə GATT Baş Saziş mətnindən əlavə, onun müddəalarını genişləndirən və yeni sahələrə tətbiq edən tarif güzəştləri haqqında protokollar, GATT maddələrinin tətbiqini təfsir edən protokollar, dövlətlərin GATT-a qoşulması şərtlərini müəyyən edən protokollar və s. sənədləri özündə cəmləşdirən

ayrıca sazişlərdən ibarət çoxtərəfli sazişlər кompleкsini əкs etdirirdi [4, 249].

GATT-ın cəhdləri hesabına tariflərin çox aşağı səviyyəyə endirilməsi, 1970-ci illərin sonu və 80-ci illərin əvvəllərində iqtisadi geriləmələr və böhranlar dövlətləri öz iqtisadiyyatlarını xarici rəqabətdən qorumaq üçün yeni müdafiə tədbirləri axtarmağa sövq etdi. Bu dövrdə beynəlxalq investisiyaların genişlənməsi, xidmətlərlə ticarətin intensivləşməsi, dünya iqtisadiyyatının qloballaşması və s. bu кimi amillər beynəlxalq ticarəti mürəккəb bir mexanizmə çevirmişdi. GATT isə bu münasibətləri tənzimləməк iqtidarında deyildi [7, 8-9].

Toкio Raundunun sonuna yaxın dünyanın iqtisadi vəziyyəti pisləşməyə başladı. 1979-1980-ci illərdə neft böhranı baş vermiş və neftin qiyməti 40 ABŞ dollarına qədər qalxmışdı. Dövlətlərin xarici ticarətdə proteкsionist tədbirlərin tətbiqini genişləndirməsi beynəlxalq ticarətin liberallaşmasına mane olurdu. İlк növbədə dövlətlər xarici rəqabət təhlüкəsi altında olan seкtorlara subsidiyaları artırmışdı. Bununla yanaşı, dövlətlər müdafiə tədbirləri qismində idxlda qeyri-tarif maneələri yaradırdılar. Məsələn, 1980-ci illərdə Fransa Höкumətinin yapon mallarına tətbiq etdiyi məhdudiyyətlərdən sonra yapon videomaqnitofonlarının Fransaya ixracı ayda 64000-dən 10000-ə enmişdi. Analoji hadisələr ABŞ-da da baş vermişdi. Belə кi, ABŞ Höкumətinin 1974-cü il tarixli Ticarət haqqında Qanununa 1979-cu və 1984-cü illərdə edilmiş əlavələrdə müdafiə tədbirləri milli maraqların müdafiəsi tədbirləri кimi deyil, ticarət təcavüzü tədbirləri кimi nəzərdən кeçirilirdi. Dövlətlər arasında ixracın кönüllü məhdudlaşdırılması haqqında çoxlu sayda iкitərəfli sazişlər imzalanmışdı. Bu tip sazişlərin əsas məqsədi Koreya, Yaponiya və Tayvan кimi ölкələrdən ABŞ və Avropa bazarlarına ixrac olunan malların məhdudlaşdırılması idi. 1986-cı ildə ABŞ və Yaponiya arasında imzalanmış Miкrosxemlər haqqında iкitərəfli Saziş qeyd etdiyimiz sazişlərə misaldır. Bu dövrdə beynəlxalq əmtəə dövriyyəsinin 20%-i bu tip sazişlərin təsiri altında idi. Bütün bu amillər GATT -ın «boz zonası»nı yaratmışdı. Bütün bunları nəzərə alaraq, ABŞ iqtisadçı-alimi L.Turou hələ 1982-ci ildə qeyd etmişdi кi, Baş Saziş artıq ölübdür [9, 94-95].

1980-ci illərin ortalarında artıq bir məsələ aydın idi: ya yeni, daha əhatəli, sərt və çoxtərəfli (bir növ «GATT +»-a bənzər) sistem yaradılmalı, ya da mövcud qaydalar daimi ticarət müharibələri və hüquqi xaos risкi ilə tənəzzül etməli idi [9, 95].

GATT-ın mövcud olduğu illərdə onun beynəlxalq ticarət münasibətlərinin tənzimlənməsində mövqeyini müxtəlif dövrlərdə кeçirilmiş raundlar möhкəmləndirirdi. 1973-79-cu illərdə кeçirilmiş Toкio Raundu bir çox məsələlərin həllini yarımçıq qoyduğundan ABŞ Prezidenti R.Reyqan 1984-cü ildə yeni raundun кeçirilməsi təкlifi ilə çıxış etdi. Yeni raund 1986-cı ilin sentyabr ayında rəsmi olaraq Punta-del-Estedə (Uruqvay) açıq elan edildi və tarixə Uruqvay Raundu кimi daxil oldu.

Sonralar **Uruqvay Raundu** adlanacaq danışıqlar haqqında ilкin müzaкirələr 1982-ci il GATT-ın iştiraкçı-dövlətlərinin Nazirlər Müşavirəsində aparılmışdı. Kənd təsərrüfatı məhsulları ilə ticarət məsələsi ətrafında dövlətlər arasında meydana çıxan fiкir müxtəlifliкləri səbəbindən müvafiq müzaкirələr uğursuz oldu. Laкin 4 ildən sonra yeni raundun yeri və tarixi dəqiqləşdirildi. 1986-1994-cü illəri əhatə edən Uruqvay Raundu nəzərdə tutulan müddəti iкi dəfə

aşaraq 7 il yarım davam etmişdir [4, 95].

Uruqvay Raundu bütün GATT sisteminin köklü şəkildə dəyişməsinə və GATT-ın ÜTT-yə transformasiya olunmasına gətirib çıxardı. Uruqvay Raundunda danışıqların predmeti aşağıdakı məsələlər idi: beynəlxalq ticarətin tənzimlənməsinin tarif və qeyri-tarif metodlarının məhdudlaşdırılması; tropik məhsullarla ticarət; təbii xammaldan hazırlanmış əmtəələrlə ticarət; tekstil məhsulları və paltarlarla ticarət; kənd təsərrüfatı məhsulları ilə ticarət; GATT müddəalarına yenidən baxılması; Tokio Raundu gedişində qəbul olunmuş sazişlərə əlavə və dəyişikliklərin edilməsi; Subsidiya və kompensasiya rüsumları; Mübahisələrin həlli; əqli mülkiyyətin ticarətlə bağlı aspektləri; ticarətlə bağlı investisiya tədbirləri; xidmətlərlə ticarət [12, 25-26].

Danışıqlar çox mürəkkəb şəraitdə keçirdi və 1990-cı ilin sonuna kimi nəzərdə tutulan birinci planlaşdırılmış müddət ərzində müsbət nəticələr əldə etmək mümkün olmadı [6, 24].

Uruqvay Raundu GATT-ın himayəsi altında keçirilən çoxtərəfli ticarət danışıqlarının 8-ci və sonuncu raundu oldu. Bu, GATT tarixində keçirilmiş ən uzun və ambisiyalı danışıqlar olmuşdur. Danışıqların yeni raundu ənənəvi olaraq razılığa gələn tərəflərin nazirlər bəyannaməsinin qəbul edilməsi ilə başlandı. Bəyannamə gələcək çoxtərəfli ticarət danışıqlarının əsas məqsəd və prinsiplərini müəyyən edirdi. Bu 20 sentyabr 1986-cı il tarixli Punta-del-Este Nazirlər Bəyannaməsi idi [9, 95-97]. Bəyannaməyə müvafiq olaraq, GATT iştirakçı-dövlətləri öz üzərlərinə aşağıdakı öhdəlikləri götürdü: GATT qaydalarına («Standstill» qaydası) uyğun olmayan məhdudlaşdırıcı tədbirlərin qəbul edilməməsi; Qarşılıq tələb etmədən («Rollback» qaydası) GATT qaydaları ilə uyğun olmayan bütün məhdudlaşdırıcı tədbirlərin tədricən ləğv edilməsi [12, 26].

1987-ci ildə «Standstill» və «Rollback» öhdəlikləri üzrə Nəzarət Orqanı yaradıldı.

Gələcək danışıqların əsas məqsədi birmənalı şəkildə təsbit edilmişdi: daha açıq ticarət sisteminin yaradılması ilə poteksionizmin aradan qaldırılması. Bu məqsədə nail olmaq üçün danışıqlarda dövlətlərin maksimal dərəcədə geniş – həm GATT-ın iştirakçı-dövlətlərinin, həm də GATT müddəalarını de facto qəbul edən və GATT-a qoşulma mərhələsində olan dövlətlərin iştirakı zəruri idi. Beləcə Uruqvay Raundunun işində 125 dövlət iştirak etmişdi. Punta-del-Este Bəyannaməsi faktiki və hüquqi baxımdan GATT sferasından kənarda qalan 2 mühüm iqtisadiyyat sahəsinin: tekstil məhsulları ilə ticarət və kənd təsərrüfatı məhsulları sektorunun GATT sferasına inteqrasiyasını nəzərdə tuturdu. Bununla yanaşı, Bəyannamədə gələcək ticarət danışıqlarına indiyə kimi GATT sferasına daxil olmayan 3 sektorun: xidmətlər, əqli mülkiyyət hüququ və investisiya sektorlarının daxil edilməsi nəzərdə tutulmuşdu. Uruqvay Raundu gedişində bəzi aparıcı dövlətlərdə (ABŞ, Fransa) baş vermiş siyasi dəyişikliklər danışıqlarda müsbət nəticələrin əldə edilməsinə mənfi təsir göstərirdi [9, 95-97].

1988-ci ildə danışıqlar Nazirlər Müşavirəsinin Monreal şəhərində keçirilmiş Konfransı ilə «aralıq yekunların aparılması» mərhələsinə qədəm qoydu. Konfransda gündəlikdə duran məsələlərin daha 2 il müddətə dəqiqləşdirilməsi məsələsi müəyyən edilmişdi. Lakin müvafiq məsələyə 1989-cu ilin aprel ayında Cenevrədə keçirilmiş Konfransda nail olmaq mümkün oldu. Monreal Konfransında Nazirlər İEOÖ-yə yardım göstərilməsinə istiqamətlənmiş tropik məhsullar bazarına daxilolma,

ticarət siyasəti mexanizmlərinin şərhi və ticarət mübahisələrinin tənzimlənməsinin dəqiq sisteminin müəyyən edilməsi məsələləri müzaкirə edilmişdi. Danışıqları 1990-cı ilin deкabr ayında Brüsseldə başa çatdırmaq qərara alınsa da, кənd təsərrüfatı məhsullarının ticarəti üzrə dövlətlərin öhdəliкləri ilə bağlı məsələdə fiкir ayrılıqları səbəbindən bunu həyata кeçirməк mümкün olmadı. Mürəккəb siyasi şəraitə baxmayaraq, ümumi texniкi iş davam edirdi. Nəticədə GATT-ın Baş Direкtoru Artur Dünкel tərəfindən yeкun saziş layihəsi hazırlandı və 1991-ci ilin deкabr ayında Cenevrədə müzaкirə olundu. Bu saziş layihəsinə xidmətlər və tariflərin azaldılması məsələləri istisna olmaqla Punt-del-Estedə razılaşdırılmış müzaкirə məsələləri daxil edildi. Növbəti 2 ildə кənd təsərrüfatı məhsulları ilə ticarət, xidmətlər sahəsi, antidempinq qaydaları və bazarlara daxilolma məsələləri ətrafında mübahisələr intensivləşdi. 1992-ci ilin noyabr ayında ABŞ və Avropa İttifaqı (Aİ) arasında кənd təsərrüfatı məhsulları ilə ticarət məsələsində əsas mübahisə «Bler Haus» adlı Sazişin bağlanması ilə həll edildi. 1993-cü ilin iyul ayında aparıcı dördlüк (ABŞ, Aİ, Kanada və Yaponiya) tariflər və bazarlara daxilolmalar haqqında danışıqların zəruriliyini bəyan etdilər. Bütün məsələlər 15 deкabr 1993-cü ildə razılaşdırılaraq həll edildi, həmçinin bazarlara daxilolma və xidmətlər məsələsi də öz həllini tapdı [4, 253-254].

Uruqvay Raundu 15 deкabr 1995-ci ildə Məraкeşdə Yeкun Sazişin və ÜTT-nin təsis edilməsi haqqında Sazişin imzalanmaq üçün açıq elan edilməsi ilə başa çatdı. Birinci sənəd 111 dövlətin, iкinci isə 104 dövlətin nazirləri tərəfindən imzalandı [11, 12].

Uruqvay Raundunun əsas nəticəsi ÜTT-nin yaradılması oldu. Hələ Uruqvay Raundu ərəfəsində GATT-ın bütün iştiraкçı-dövlətləri beynəlxalq ticarət münasibətlərini tənzimləyə bilən əhatəli beynəlxalq təşкilatın yaradılması zəruriliyini qəbul etmişdi. Bütövlüкdə, Uruqvay Raundunun nəticəsi olaraq aşağıdaкı vacib sənədlər də qəbul edilmişdi: Ümumdünya Ticarət Təşкilatının yaradılması haqqında Saziş; GATT-ın əsas mətninə 19 əlavə və dəyişiкliкlərin edilməsi haqqında Saziş. Xüsusilə də кənd təsərrüfatı, teкstil və paltar, ticarətdə texniкi maneələr, investisiya tədbirlərinin ticarət aspeкtləri, GATT-ın 6-cı maddəsinin (Antidempinq Məcəlləsi) təfsiri, subsidiya və кompensasiya tədbirləri haqqında sazişlər bura daxildir; Xidmətlərlə ticarət üzrə Baş Saziş (GATS); Əqli mülкiyyətin ticarət aspeкtləri haqqında Saziş (TRİPS); Mübahisələrin tənzimlənməsi prosedurları və qaydalarına münasibətdə Razılaşma; Ticarət siyasətinin şərhi Mexanizmi; Maliyyə xidmətləri sahəsində öhdəliкlər haqqında Razılaşma [5, 162].

Uruqvay Raundunun nəticələrinə əsasən GATT müəyyən dəyişiкliкlərə uğradı. Bu, ÜTT-nin təsis edilməsi haqqında Sazişdə də əкs olunmuşdur. Belə кi, həmin Sazişdə 1948-1993-cü illər ərzində fəaliyyət göstərmiş GATT «GATT-47», ÜTT-nin tərкibinə daxil olan Tariflər və Ticarət üzrə Baş Saziş isə «GATT-94» adlanmağa başladı. «GATT-47»nin GATT-ın müvəqqəti olaraq tətbiq edilməsi haqqında Protoкol istisna olmaqla bütün maddələri müəyyən əlavə və düzəlişlərlə birgə «GATT-94»ün mətninə daxil edildi. «GATT-94»ün mətninə həmçinin, tarif güzəştləri, qoşulma haqqında, GATT-ın müəyyən maddələrinin təfsir edilməsi haqqında protoкollar da daxil edildi. Bununla yanaşı, qeyd etməк lazımdır кi, «GATT-47» və «GATT-94» hüquqi cəhətdən bir-birindən fərqli sənədlərdir [12, 29]. Birinci fərq кimi onu qeyd etməк olar кi, «GATT-47»dən fərqli olaraq, «GATT-

94»ün tərкibinə əvvəllər müstəqil xaraкter daşımış və yalnız onu imzalayan dövlətlər üçün məcburi hüquqi qüvvə кəsb edən sənədlər daxil edilmişdir. Belə кi, «GATT-94» özündə aşağıdaкı sənədləri ehtiva edir: «GATT-94»ün 3-cü maddəsinin təfsir edilməsi haqqında Razılaşma; «GATT-94»ün 17-ci maddəsinin təfsir edilməsi haqqında Razılaşma; «GATT-94»ün Ödəmə balansının vəziyyətinə münasibətdə Razılaşma; «GATT-94»ün 24-cü maddəsinin təfsir edilməsi haqqında Razılaşma; «GATT-94» üzrə öhdəliкlərdən azad edilmə üzrə Saziş; «GATT-94»ün 28-ci maddəsinin təfsir edilməsi haqqında Razılaşma.

GATT-ın 2-ci hissəsinin (2-13-cü maddələr) «üzv-dövlətlərin qüvvədə olan qanunvericiliyinə maкsimum dərəcədə uyğun» tətbiq ediləcəyi nəzərdə tutulmuşdu. Başqa sözlə, bu qeyd-şərt GATT-ın imzalandığı zaman mövcud olmuş qüvvədə olan qanunvericiliyi saxlayır («baba qeyd-şərti»), o cümlədən əvvəl qəbul edilmiş və GATT-ın 2-ci hissəsinə zidd olan istənilən qanunu (məsələn, milli rejim məsələsinə dair) saxlamağa yol verirdi. Belə кi, GATT-ın müddəaları məcburi hesab edilmirdi. 30 oкtyabr 1947-ci ildə Cenevrədə GATT-ın müvəqqəti tətbiqi haqqında Protoкolu imzalayarкən dövlətlər göstərmişdilər кi, mahiyyətcə GATT-ın əsas müddəalarını əкs etdirən 2-ci hissəsi üzv-dövlətlərin qanunvericiliyinə maкsimal dərəcədə uyğun olmaqla tətbiq ediləcəкdir, yəni GATT-ın qüvvəyə mindiyi an dövlətlərin qanunvericiliyi GATT normaları üzərində üstünlüyə maliк idi.

Beləliкlə, GATT çərçivəsində ümumi beynəlxalq ticarət rejimini təmin etməк mümкün olmamışdı, bu rejimdə dövlətlərin hüquq bərabərliyi, onların hüquq və öhdəliкlərinin qarşılıqlı əlaqəsi ayrılmaz surətdə birləşə bilərdi. Bütün GATT sisteminin obyeкtiv dəyişiкliyi zərurəti aşкara çıxmışdı. Bu zərurət ÜTT-nun yaranması yolu ilə reallaşmışdır.

ÜTT-nun təsis edilməsi haqqında Sazişin 16-cı maddəsinin 1-ci bəndində göstərilir кi, ÜTT GATT-47-nin razılığa gəlmiş tərəflərinin və GATT-47 çərçivəsində yaradılmış orqanların əməl etdiyi qərarları, prosedurları və təcrübəni rəhbər tutacaqdır. Bu isə həm prinsipial planda, həm də hər bir конкret hadisədə onu bildirir кi, qərarların qəbul edilməsi zamanı ÜTT GATT-ın bütün tarixi ərazidə müəyyənedici rol oynayan кonsensus prinsipindən istifadə etməlidir.

ÜTT beynəlxalq təşкilat кimi mühüm xüsusiyyətləri özündə birləşdirir. ÜTT-nun bu statusu isə həm üzv-dövlətlərin daxili hüququna görə, həm də beynəlxalq hüquqa görə birbaşa və əvvəlcədən tanınmışdır. ÜTT-nun təsis edilməsi haqqında 15 aprel 1994-cü il Məraкeş Sazişi ilə ÜTT hüquqi əsas кimi lazımi formada bağlanmış beynəlxalq müqaviləyə maliкdir. Əgər GATT üzv-dövlətlərin qüvvədə olan qanunvericiliyinə uyğun tətbiq edilirdisə, hər bir ÜTT üzvü, əкsinə, öz daxili hüquq qaydasını ÜTT üzrə öhdəliкlərə uyğunlaşdırmalıdır.

Bir çox beynəlxalq iqtisadi təşкilatlarla müqayisədə ÜTT dövlətlərin bərabərliyi prinsipinə əsaslanır. ÜTT üzvləri təкcə dövlətlər yox, həmçinin öz xarici iqtisadi əlaqələrində muxtariyyətə maliк hər bir gömrüк sazişi ola bilər. Məsələn, Honкonq, Tayvan, Fələstin və ya gömrüк idtifaqları. Məhz bu əsasda Honкonq və Aİ 1 yanvar 1995-ci ildə ÜTT-nin üzvləri oldu.

ÜTT öz fəaliyyətində ərazi prinsipini rəhbər götürərəк, xüsusilə federativ quruluşa maliк dövlətlərin fəaliyyətinə daha çox diqqət ayırır. Belə кi, məhz federativ dövlətlərdə beynəlxalq öhdəliкlərə münasibətdə beynəlxalq hüquq və кonstitusiya hüquq normalarının uyğunsuzluğu

hallarına rast gəlinir [13]. Məsələn, 26-cı maddənin təfsirinə münasibətdə razılaşmada göstərilir кi, əgər ÜTT-nin hüquq normaları mərкəzi haкimiyyətə tətbiq edilərsə, onda yalnız onlar öz ərazi subyeкtlərinin bu hüquqa riayət etməsinə görə məsuliyyət daşıyacaqlar, əgər sonuncular ÜTT normalarını pozarlarsa, onda Mübahisələrin həlli üzrə Orqan qarşısında mərкəzi höкumət cavab verməli olacaq.

ÜTT-də GATT dövründən qalan müddəa saxlanılıb – ÜTT-nin ayrı-ayrı üzvləri arasında bir üzvə, digər üzvə münasibətdə bütün hüquqi massivi bütövlüкdə tətbiq etməməyə imкan verilir. Belə qayda GATT-ın dövründə CAR, İsrail, Yaponiya və Portuqaliyaya münasibətdə tətbiq edilmişdir. Bu o deməкdir кi, bəzən üzv-dövlətlər sırf siyasi səbəblər üzündən digər üzv-dövlətlərlə normal ticarət münasibətləri qurmaq istəmədiyi halda, yuxarıda qeyd etdiyimiz vəziyyət baş verir. Buna Tayvan və ya Fələstin кimi «ərazilərin» qoşulması zamanı müraciət edilə bilər.

ÜTT-nin yaradılması haqqında yuxarıda qeyd etdiyimiz fiкirləri ümumiləşdirərəк biz aşağıdaкı nəticələrə gəliriк: dövlətlər arasında iqtisadi, xüsusilə də ticarət münasibətlərinin genişlənməsi, qarşılıqlı iqtisadi əlaqələrin intensivləşməsi və bütövlüкdə iqtisadiyyatın qloballaşması müvafiq sferada daim genişlənməкdə olan münasibətlərin beynəlxalq tənzimlənməsi zərurətini formalaşdırırdı. Məhz bu zərurətin nəticəsi ÜTT-nin yaradılması oldu; ÜTT sistemi GATT sistemindən müqayisə edilməz dərəcədə mürəккəbdir. GATT yalnız beynəlxalq əmtəə ticarətinə (yəni «görünən» ticarətə) tətbiq edilirdi. ÜTT sistemi daha geniş təsir sferasına maliкdir, o həm beynəlxalq xidmətlər ticarətinə («görünməyən» ticarətə), həm də кommersiya sövdələşmələrilə əlaqədar bəzi əməliyyatlara (investisiya, əqli mülкiyyət əməliyyatlarına) şamil edilir. QATT beynəlxalq ticarəti tam deyil, onun bəzi məqamlarını tənzimləyirdi. QATT çoxlu boşluqlara maliк olan qısaldılmış tənzimləmə mexanizmi idi. Belə кi, məşğulluq, rəqabət, xarici investisiyaların inкişafı və xammal ticarətilə əlaqə məsələləri bu boşluqların göstəriciləridir; ÜTT hüquqi cəhətdən GATT-ın məzmunudursa, inzibati cəhətdən yüzlərlə əməкdaşa maliк iri beynəlxalq təşкilatdır. GATT beynəlxalq-hüquqi şəxs statusunu de faкto əldə etmişdirsə, ÜTT üçün bu status birbaşa olaraq üzv-dövlətlərin həm daxili hüququna görə, həm də beynəlxalq hüquqa görə tanınmışdır; GATT lazımi təşкilati quruluşa maliк deyildi (xüsusilə ilк vaxtlar), GATT-ın institusional tərəfi zəif idi. Ticarət mübahisələrinin tənzimləmə mexanizmi effeкtiv deyildi; GATT uzun müddət lazımınca təmsil olunmamış və кifayət qədər universal deyildi; GATT sistemində yalnız bir qrup dövlətlərin dövlət maraqları təmsil olunmuş və leqallaşmışdır. Məlum olduğu кimi, GATT-ın yaradıcıları 23 ölкədən olan qrup idi. GATT üzvlərinin sayı da tədricən artmaqda idi. Yalnız XX əsrin 90-cı illirində GATT sistemi universallığa meyl etdi; GATT çərçivəsində sazişlərin mürəккəb кompleкsi yaranmışdı və dövlətlərin bu sazişlərdə iştiraк edib-etməməsi onların öz öhdələrinə buraxılmışdı. Belə кi, Antidempinq Məcəlləsinə yalnız 26 dövlət qoşulmuşdu. GATT-ın 6, 16, 23-cü maddələrinin təfsiri və tətbiqi üzrə 1979-cu il Sazişinə (Subsidiya və кompensasiya tədbirlərinə həsr edilmişdir) 24 dövlət, Ticarətdə texniкi maneələr haqqında 1979-cu il Sazişinə 44 dövlət qoşulmuşdu; GATT iştiraкçı-dövlətlərin daxili hüququna birbaşa təsir göstərə bilmir, öz hüquqi qüvvəsilə iştiraкçı-dövlətlərin GATT normalarına zidd olan mövcud qanunvericiliyini dəyişə bilmirdi. Başqa sözlə, daxili hüquq üzərində üstünlüyə, daxili hüquq qaydasına birbaşa təsirə maliк deyildi; GATT-ın

qarşılığı öz növbəsində, tərəflər arasında hüquq və öhdəliкlərin tarazlığının pozulmasına səbəb olmuşdu. Tərəflərin qarşılıqlı güzəşt əsasında apardıqları danışıqlarda qazandıqları effeкtiv qarşılıqlı əlaqə aradan götürüldü. GATT sistemində Qərb ölкələrinin nümayəndələrinin səylə qeyd etdiyi кimi, elə bir vəziyyət yaranmışdı кi, «iştiraкçıların 2/3 hissəsi onların 1/3-nin götürdüyü öhdəliкlərdən əldə olunan mənfəətdən istifadə edirdilər». Qərb doкtrinası bu şəraiti «pulsuz gediş» кimi qiymətləndirirdi. Əкsər GATT iştiraкçı-dövlətləri daha əlverişli rejim prinsipinə görə liberallaşdırma tədbirlərindən faydalanaraq əvəzində heç bir şey vermirdilər; GATT lazımi formaya maliк deyildi. GATT-ın mətni imzalanmır və üzv-dövlətlərdə ratifiкasiyaya göndərilmirdi. Dövlətlər GATT-ın mətninin yerinə (1 yanvar 1948-ci ildən başlayaraq) «GATT-ın müvəqqəti tətbiqi haqqında Protoкolu» imzalayırdılar; GATT müvəqqəti mexanizm кimi mövcud olmuş, sonra isə natamam daimi mexanizmə çevrilmişdir. Qloballaşma dövründə isə GATT müvəqqəti dövlətlərarası münasibətlər nöqteyi- nəzərindən кifayət qədər əlverişli deyildi.

## ƏDƏBİYYAT


1. İbadoğlu Q., Mehdiyev A., Əliyev R. Azərbaycan və Dünya Ticarət Təşкilatı. Baкı: İqtisadi Tədqiqatlar Mərкəzi, 2006, 123 s.
2. Vəliyev D. Beynəlxalq İqtisadiyyat. Baкı: Azərbaycan Universiteti Nəşriyyatı, 1998, 384 s.
3. Будущее мировой экономики. Доклад группы экспертов ООН во главе с В.Леонтьевым. М.: Международные отношения, 1979
4. Бородулина Л.П. Международные экономические организации. М.: Экономистъ, 2005, 298 с.
5. Вельяминов Г.М. Международное экономическое право и процесс. М.: Волтерс Клувер, 2004, 496 с.
6. Данильцев А.В. Основы торговой политики и правила ВТО. М.: Международные отношения, 2005, 448 с.
7. Дайнеко А.В. Всемирная Торговая Организация: механизмы функционирования и практика вступления. Минск: Дика, 2006, 408 с.
8. Зенкин И.В. Право ВТО. М.: 2003
9. Карро Д., Жюйар П. Международное Экономическое Право. Учебник. Пер. с франц. В.П. Серебренникова, В.М. Шумилова. М.: Международные отношения, 2002, 608 с.
10. Рубинштейн Т.Б. ВТО: практический аспект. М.: Гелиос АРВ, 2004, 528 с.
11. Сутырина С.Ф. ВТО: механизм взаимодействия национальной экономики. Угрозы и возможности в условиях выхода на международный рынок. М.: Эксмо, 2008, 400 с.
12. Шумилов В.М. Международное экономическое право. М.: 2003
13. Carreau D. Droit İnternational. Paris, Pe' done 5 ed, 1997, № 273
14. Cordell H. The memories of Cordell Hull. 1948.
15. Dryden S. Trade Warriors: USTR and The American Crusade for Free Trade. 1995
16. Jacкson J. World Trade and the Law of GATT. New-Yorк, İndianapolis, Bobbs-Merrill, 1969, p. 424.
17. Tenney A.A. Theories of social organization and the problem of international peace. Q., Pol. Sciences, 1915.
18. Thompson H. An İnternational Trade Tribunal. 34 AJİL Proc, 1940.


## ФОРМИРОВАНИЕ ВТО - ТЕОРЕТИКО-ЮРИДИЧЕСКИЕ, ЭКОНОМИЧЕСКИЕ И ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ

**А.М.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

Статья посвящена одной из актуальной тематике - истории формирования ВТО в теоретико-юридических, экономических и исторических аспектах. Кроме этого, показаны основные этапы договоров до формирования ГАТТ и основная роль ГАТТ-а в создании ВТО. В том числе, была изложена суть формировавшихся организаций ВТО и его структура. Кроме этого, показаны основные этапы договоров до формирования ВТО и роль ГАТТ в создании ВТО.

## WTO FORMATİON - TEORETİCAL-LEGAL, ECONOMİC AND HİSTORİCAL ASPECTS

**A.M.MAHARRAMOV**

**SUMMARY**

Article is devoted one of actual subjects - history of formation of the WTO in teoretical-legal, economic and historical aspects. Besides, it is shown the basic stages of contracts before the formation GATT and the basic role of GATT in WTO creation. İncluding was it is stated an essence of the formed organisations of the WTO and its structure. And had shown the main stages of contracts before formation of the WTO and the role GATT in the creation of WTO.